

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 43 (23.930)

3 mart 2022-ci il, cümə axşamı

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Rumıniyanın energetika naziri Virgil-Daniel Popeskunu və Rumıniya Prezidentinin strateji layihələr üzrə xüsusi nümayəndəsi Ana Birçalı videoformatda qəbul edib. Rumıniyanın energetika naziri Virgil-Daniel Popesku Rumıniya Prezidenti Klaus Yohannisin diplomatik əlaqələrimizin qurulmasının 30 illiyi münasibətilə və Prezident İlham Əliyevi Rumıniyaya səfərə dəvətlə bağlı dövlətimizin başçısına ünvanladığı məktubu qeyd edib. Dövlətimizin başçısı məktuba görə minnətdarlığını Rumıniya Prezidentinə çatdırmağı xahiş edib.

Söhbət zamanı Azərbaycanla Rumıniya arasında münasibətlərin strateji tərəfdaşlıq prinsiplərinə əsaslandığı vurğulanıb və bu baxımdan strateji tərəfdaşlığa dair imzalanmış birgə Bəyannamənin önəmi qeyd edilib.

Görüşdə Azərbaycan-Avropa İttifaqı əlaqələrinə toxunulub, bu əlaqələrin uğurla inkişaf etdiyi vurğulanıb və ölkəmizlə Avropa İttifaqının 9 üzv dövləti arasında strateji tərəfdaşlıq haqqında sənədlərin imzalanmasının bunun yaxşı göstəricisi olduğu qeyd edilib. Söhbət zamanı əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.



*Dövlət proqramı icra olunur*

## Rəqəmsal ödəniş infrastrukturu təkmilləşdirilir

*Müasir dövrümüzdə rəqəmsal ödəniş xidmətlərinin genişləndirilməsi dünya miqyasında mühüm aktual məsələlərdən hesab olunur. Bu istiqamətdə beynəlxalq səviyyədə təklif olunan yeniliklərin sayı gündən-günə artır və dünya ölkələri nağdsız hesablaşmaların tətbiqi sferasının genişləndirilməsinə maraq göstərir. Son dövrlərdə, xüsusilə də təmassız ödəniş vasitələrindən istifadə qlobal trendə çevrilmişdir. Ölkə Prezidenti cənab İlham Əliyev demişdir:* ***"Biz yeni iqtisadi modelə keçməklə bundan sonra iqtisadiyyatımızı, ancaq islahatlar, innovasiyalar, texnologiyalar və qeyri-neft sektoru hesabına inkişaf etdirəcəyik".***

Naxçıvan Muxtar Respublikasında da bu sahədə həyata keçirilən tədbirlərin əhatə dairəsi genişlənməkdə davam edir. Texnologiya əsrinin innovativ çağırışlarına uyğun infrastrukturun formalaşdırılması muxtar respublika iqtisadiyyatının dayanıqlı inkişafını təmin edən faktorlardandır. Görülən işlərin səmərəli xarakter almasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 avqust tarixli Sərəncamı ilə təsdiq edilən "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ın xüsusi əhəmiyyəti vardır. Proqramın məqsədi əhali, biznes subyektləri və dövlət strukturları arasında nağdsız ödəniş imkanlarının daha da genişləndirilməsi və mövcud infrastrukturun təkmilləşdirilməsi ilə əlaqədar tədbirlərin həyata keçirilməsindən ibarətdir. Bu istiqamətdə işlər 2021-ci ildə də davam etdirilmişdir.

Yeni quraşdırılan POS-terminal, bankomat və digər ödəniş terminallarının sayının artması Naxçıvanda rəqəmsal ödəniş mühitinin daha da yaxşılaşdırılmasına xidmət edir. Ötən il proqramda nəzərdə tutulan tapşırıqların icrası məqsədilə ticarət, iaşə və digər xidmət obyektlərində 320 təmassız ödəniş imkanlı POS-terminalın quraşdırılması təmin edilmiş və onların ümumi sayı 829-a çatdırılmışdır. Həmçinin 18 MilliÖn terminalı quraşdırılmış və əhalinin daha çox üz tutduğu ərazilərdə valyuta mübadiləsi imkanına malik 5 bankomat yerləşdirilmişdir. Görülən işlər muxtar respublikanın istənilən ərazisində ucuz və əlverişli maliyyə xidmətlərinə çıxış imkanlarını artırmışdır.

Naxçıvanda fəaliyyət göstərən banklarda müasir ödəniş texnologiyalarından istifadə etməklə əhaliyə bir sıra məsafəli bank xidmətləri göstərilir. Elektron bankçılıq bank xidmətlərinin effektivliyini artırır. Digər tərəfdən proqramın icrası istiqamətində həyata keçirilən tədbirlər vergiödəyiciləri üçün ödəniş sistemini sadələşdirir və özəl sektorda ödəniş kartlarından istifadəni genişləndirir. Ötən il məsafəli bank xidmətlərindən olan onlayn kart sifarişi vasitəsilə 8 min 584 kart sifariş olunmuş, kredit müştəriləri tərəfindən 97 milyon 263 min 191 manat kredit ödənişi banka getmədən ödəniş terminalları vasitəsilə həyata keçirilmişdir. Özəl sektorda aparılan maarifləndirmə tədbirləri nəticəsində 60 vergiödəyicisi üzrə 360 işçinin əməkhaqqının ödəniş kartları vasitəsilə ödənilməsi təmin edilmişdir. Bu dövrdə 764 vergiödəyicisi tərəfindən POS-terminal hesabına alınmış kartlar vasitəsilə 377 min 643 manat, 1840 vergiödəyicisi tərəfindən isə şəxsi kartları vasitəsilə 687 min 621 manat vergi və sosial ayırmaların nağdsız qaydada ödənilməsi təmin olunmuşdur. Proqramda nəzərdə tutulan tapşırıqların icrası biznes subyektləri üçün pul dövriyyəsinin idarə edilməsinə çəkilən xərclərin minimallaşdırılması imkanını yaratmışdır.

Rəqəmsal ödəniş xidmətləri sahəsində tətbiq edilən mühüm vasitələrdən biri də Hökumət Ödəniş Portalıdır. Portalın əhatə dairəsinin genişləndirilməsi bir sıra kütləvi ödənişlərin mərkəzləşdirilmiş qaydada bank sistemi və poçt şəbəkəsi vasitəsilə toplanmasını təmin edir. Ötən il bu istiqamətdə tədbirlər də diqqətdə saxlanılmış, muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində birinci kurs tələbələri üçün təhsil haqlarının Hökumət Ödəniş Portalı vasitəsilə ödənilməsi təmin olunmuşdur. Bu da təhsil müəssisələrində ödəniş sisteminin sadələşdirilməsindən xəbər verir.

Proqramda nəzərdə tutulan mütərəqqi əhəmiyyətli tədbirlərdən biri də aviakassalarda və avtovağzallarda bilet satışlarının nağdsız qaydada həyata keçirilməsi imkanlarının təkmilləşdirilməsidir. Bu məqsədlə görülən işlər biletalma prosesini maksimum rahat, sadə şəkildə həyata keçirməyə və vaxta qənaət etməyə şərait yaradır. Ötən il muxtar respublikada fəaliyyət göstərən aviakassa və avtovağzallarda, ümumilikdə, 578 min 470 manat məbləğində nağdsız qaydada bilet satışı həyata keçirilmişdir.

Rəqəmsal ödəniş xidmətlərindən istifadə göstəricilərinə müsbət təsir edən amillərdən biri də əhalinin maliyyə savadlılığının artırılmasıdır. Bu məqsədlə həyata keçirilən maarifləndirmə tədbirləri əhalidə nağdsız ödəniş vərdişlərinin formalaşdırılması istiqamətində yeni imkanlar açır. Görülən işlər rəqəmsal ödəniş xidmətləri ilə bağlı ictimai məlumatlılığı artırır və bu xidmətlərin cəmiyyətin müxtəlif sahələrində tətbiqi üçün stimullaşdırıcı xarakter daşıyır. Digər tərəfdən nağdsız ödənişlərlə bağlı həvəsləndirici tədbirlərin davam etdirilməsi də rəqəmsal ödəniş xidmətlərindən istifadənin kütləviləşməsinə təkan verir. Proqramda nəzərdə tutulan tapşırıqların icrasına uyğun olaraq 2021-ci ildə 33 təhsil müəssisəsində 820 müəllim, 1061 şagird və 240 tələbə ilə nağdsız əməliyyatların həyata keçirilməsinin əhəmiyyəti mövzusunda maarifləndirmə işi aparılmışdır. Həmçinin bu dövrdə POS-terminal quraşdırılmış kənd mərkəzlərində əhali ilə 27 maarifləndirici görüş keçirilmişdir. Ötən il "Nağdsız ödəyin, hədiyyə qazanın!" adlı həvəsləndirici tədbirin 14 və 15-ci tirajlarında muxtar respublika üzrə nağdsız ödəniş həyata keçirən 887 şəxsə 50 min manat dəyərində hədiyyələr təqdim olunmuşdur.

"2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"da nəzərdə tutulan tədbirlərin icrasının bundan sonra da uğurla davam etdirilməsi iqtisadi artıma mühüm təkan verəcəkdir.

**"Şərq qapısı"**



*"Sənaye ili" – 2022*

## Muxtar respublikada sənayeləşmə prosesi sürətləndirilib

Sənaye istehsalı iqtisadi tərəqqinin əsas aparıcı qüvvəsi hesab edildiyi üçün muxtar respublikada bu sahənin inkişafı istiqamətində ardıcıl və məqsədyönlü iş aparılır. Həyata keçirilən uğurlu iqtisadi siyasət sənayeləşmə prosesini ötən il daha da sürətləndirmiş, dinamik inkişaf qorunub saxlanılmışdır. 2021-ci ildə muxtar respublikada 1 milyard 69 milyon 655 min 700 manat dəyərində sənaye məhsulu istehsal olunmuşdur ki, bu da bir il öncəki göstəricini 1,7 faiz üstələmişdir.

Sənaye məhsulu istehsalının 94,6 faizi malların, 5,4 faizi isə xidmətlərin payına düşmüşdür.

Sənayenin uğurlu inkişafı birbaşa sahibkarlıq fəaliyyəti ilə bağlıdır. Sənayenin inkişafı məqsədilə bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 2021-ci ildə 11 milyon 276 min manat kredit verilmişdir. Təsadüfi deyil ki, istehsal olunan sənaye məhsulunda özəl bölmənin payı 92,3 faiz təşkil etmişdir.

2021-ci ildə muxtar respublikada dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 142 layihə üzrə istehsal və xidmət obyektləri yaradılmış, 52 layihə üzrə istehsal və xidmət obyektlərinin yaradılması isə davam etdirilmişdir.

Naxçıvan Muxtar Respublikasında xalça və xalça məmulatlarının istehsalını, satışını və bu sahənin inkişafı ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən "Naxçıvan Xalça və İplik İstehsalı Müəssisəsi" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında 2021-ci il 24 noyabr tarixdə Sərəncam imzalanmışdır.





Sənaye sahəsində rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının təşviqi, innovasiyalara əsaslanan yeni müəssisələrin qurulması və uğurların artırılması üçün 2022-ci il Naxçıvan Muxtar Respublikasında "Sənaye ili" elan edilib. Bu, muxtar respublikada rəqabətədavamlı və ixracyönümlü sənaye məhsulu istehsalının artmasına, istehsal olunmuş məhsullarda keyfiyyət və kəmiyyət dəyişikliyinə, sahibkarlığın inkişafına, müxtəlif yeni istehsal müəssisələrinin yaradılmasına öz töhfəsini verəcək.

**Xəbərlər şöbəsi**



# İqtisadiyyat

*Fevral ayının 25-də Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov həyata keçirilməli olan işləri diqqətə çatdıraraq yaşıllıq zolaqlarının və meyvə bağlarının salınması ilə bağlı tapşırıqlar verib:* ***"Yaşıllaşdırma tədbirlərində ting tələbatı yerli imkanlar hesabına ödənilməli, ... tingçilik təsərrüfatlarında hazırlıqlara başlanılmalıdır. Yaz-tarla işlərinin düzgün təşkil olunması bol məhsul istehsalına təminat verir".***

*Ailə təsərrüfatlarımız*

## Tingçilik təsərrüfatı fəaliyyətini genişləndirir

Qeyd edək ki, əsrlərdən bəri kənd təsərrüfatının bir sahəsi kimi formalaşan tingçiliyə muxtar respublikamızda maraq günü-gündən artmaqdadır. Elə bunun nəticəsidir ki, diyarımızda yaşıllıqların sahəsi ilbəil artırılır, yeni meyvə bağları salınır, itməkdə olan yerli meyvə sortlarının əkilib-becərilməsinə üstünlük verilir. Bu məqsəd ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 mart tarixli Sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" təsdiq olunub. Ötən dövr ərzində proqramda nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsi istiqamətində xeyli iş görülüb, çoxlu uğurlar qazanılıb.

Tingçiliklə məşğul olan torpaq mülkiyyətçilərinə kreditlər verilir, onların rastlaşdıqları çətinliklərin aradan qaldırılması diqqət mərkəzində saxlanılır. Bu gün muxtar respublikanın ən ucqar ərazilərində belə, tingçiliyə marağın artması da



məhz bu sahəyə dövlətimizin diqqət və qayğısının davamlı xarakter almasıdır. Tingçiliklə məşğul olan zəhmət adamlarından biri də Şərur rayonunun Düdəngə kəndində yaşayan Ədalət Həsənovdur. Bu kənddə hamı onu yaxşı təsərrüfatçı, işgüzar bir əmək adamı, torpağa bağlı insan kimi tanıyır. Ailə təsərrüfatı başçısı Ədalət Həsənov 15 ildir ki, bu sahə ilə məşğul olur. O, yerli sortlar yetişdirməyə üstünlük verir. Öyrənirik ki, 13 hektara yaxın sahəni əhatə edən meyvə bağında müxtəlif növ meyvə ağacları yetişdirilir. Həm göz, həm də qələm calaq üsullarına üstünlük verir. Ədalət Həsənovun sözlərinə görə, mart ayında qələm üsulu ilə avqust ayının 15-dən sentyabrın 15-nə qədər olan müddətdə göz calaq üsulu ilə peyvəndləmə edilir. Müsahibim deyir ki, meyvə tingləri, əsasən, payızda və yazın əvvəlində əkilir. Payız əkini daha yaxşı nəticə verir. Belə ki, payızda əkilən tinglər yaxşı tutur, tez inkişaf edir və bol məhsul verir. Həmçinin əkilən tingin tutub-tutmaması iki aya bəlli olduğundan, fevral ayında onların yerinə yenilərini əkmək imkanı yaranır. Xüsusi qayğı ilə böyüdülən tinglər əkildikdən sonra da özünəməxsus qulluq tələb edir. El arasında deyirlər ki, ikinci calaq arpa biçinində aparılmalıdır. Müsahibimizin sözlərinə görə, əslində isə calaqaltının inkişafından asılı olaraq, may ayının 10-15-dən iyun ayının sonuna qədər calaq aparmaq məsləhət görülür. Bəzən iyul ayında da calaq aparılır. Ancaq iyul ayında isti çox olduğuna görə calağın tutma ehtimalı azalır. İyunun sonu, iyulun əvvəlində havanın çox isti keçməsi, ağacın inkişafının zəifləməsi calaqların bir qisminin göyərməməsinə səbəb olur.

Ədalət Həsənovun bağı ilə tanışlıq zamanı gördük ki, sahədə gilas, ərik, şaftalı, göycə, alma, armud, alça, gavalı, albalı və digər ağacların müxtəlif sortları əkilib. Onu da, xüsusilə qeyd etməyə dəyər ki, ailə təsərrüfatı köhnə meyvə sortları yetişdirməyə üstünlük verir. Həmin növlər həm yerli iqlim şəraitinə artıq uyğunlaşdığı üçün, həm də itməsin, yox olmasın deyə istifadə edilir. Həmin ağaclar yalnız üzvi gübrə ilə yetişir. Bağbanın sözlərinə görə, yetişdirdikləri tinglər 3 il sonra məhsul verməyə başlayır. 5-ci il isə tam bara girir. Ədalət Həsənov diqqətimizə çatdırır ki, ting köçürüldüyü zaman əkildiyi torpağın azotu çatışmadıqda ağacın inkişafı və meyvə verməsi ləngiyir. Əkinlər zamanı havanın temperaturuna diqqət etmək lazımdır. Hava şaxtalı və ya isti, günəşli olmamalıdır. Torpağın quruluğu və nəmliyi də önəmlidir. Orta nəmlikdə olduğu zaman ting əkinləri aparılmalıdır. Yeni canlanan meyvə ağaclarının suvarılması isə vacib deyil. Ağac canlandıqdan bir gün sonra suvarılır, daha sonra həmin ağacın suvarılmasına bir də yaz aylarında başlanılır. Müsahibim deyir: – Ən çox satılan tinglərimiz göycə, şaftalı, ərik, gilas sortlarıdır. Muxtar respublikamızın bölgələri ilə yanaşı, Türkiyəyə, Rusiyaya və Ukraynaya da satış üçün ting göndəririk.

Bu zəhmətkeş ailə təsərrüfatının fəaliyyəti ilə tanışlıq bizdə belə qənaət yaratdı ki, muxtar respublikanın torpağa, zəhmətə bağlı sakinləri mövcud imkanlardan, yaradılmış şəraitdən, hərtərəfli dövlət qayğısından səmərəli istifadə edir, müxtəlif kənd təsərrüfatı sahələrinin inkişafına böyük örnək verirlər. Bununla da onlar həm ailə



büdcələrini gücləndirir, həm də daxili bazarın tələbatını ödəməyə çalışırlar. Haqqında bəhs etdiyimiz Ədalət Həsənov da onlardan biridir.

Artıq yaz-təsərrüfat işləri başlayıb. Ədalət Həsənov da ailə təsərrüfatı ilə tingçilikdə mövsümi işlərlə məşğuldur.

**Aytac CƏFƏRLİ**

*"Sənaye ili" – 2022*

## Müəssisədə keyfiyyətli ət və ət məhsulları istehsal edilir

***Muxtar respublikamızda sahibkarlıq mühitinin formalaşması, iş adamları üçün əlverişli şəraitin yaradılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi davamlı xarakter alıb. Bunun nəticəsində əhalinin ərzaq təhlükəsizliyi təmin olunub. İllər öncə ət məhsullarına olan tələbatımızı ödəmək, dadlı-tamlı bir məhsul əldə etmək üçün muxtar respublikadan kənara çıxırdıqsa, indi bunun tamam əksini görürük. Daxili bazarda yüksəkkeyfiyyətli ət məhsulları istehsal edilir. Naxçıvanda istehsal olunan ət məhsulları respublikamızda və qonşu ölkələrdə adla deyilir. Artıq Naxçıvan brendlərinin arasında qovurma ilə yanaşı, burada istehsal edilən kolbasanın da adı çəkilir. Belə müəssisələrdən biri, "Gəmiqaya Ət Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti də dövlət qayğısından bəhrələnmişdir.***







Babək rayonunun Qoşadizə kəndi ərazisində istehsal müəssisəsi üçün torpaq sahəsi ayrılmış, 2012-ci ilin iyun ayından burada müasir layihə əsasında yeni ət məhsulları kompleksinin tikintisinə başlanılmış və 2013-cü ilin may ayında istifadəyə verilmişdir.

Ötən günlərdə Gəmiqaya Ət Məhsulları Kompleksində olduq. Öyrəndik ki, istehsal sahəsində 14 çeşid kolbasa və sosiska istehsal olunur. Keyfiyyətli məhsul istehsalı üçün Türkiyədən, Avstriya və İtaliyadan idxal edilmiş avadanlıqlar alınıb. İstehsal sahəsi gündə bir ton ət məhsulu istehsaletmə gücünə malikdir. İstifadə olunan xammalın 80 faizi yerli məhsullardandır. Bütün iri və xırdabuynuzlu heyvanların kəsimində dini qayda-qanunlara riayət olunan müəssisədə istehsal edilən kolbasa və sosiskalar halallıqla hazırlanıb süfrəmizə gətirilir. Müəssisənin yaradılmasında başlıca məqsəd daxili bazarı yüksəkkeyfiyyətli, rəqabətə davamlı ət və ət məhsulları ilə təchiz etməkdən ibarətdir. İstifadə olunan xammalın mütəmadi olaraq laborator müayinədən keçirilməsi burada keyfiyyətli kolbasa istehsalına imkan verir. Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılmış müəssisədə istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilmişdir. İstehsal edilən məhsulun ayrı-ayrı ticarət obyektlərinə keyfiyyətlə çatdırılması məqsədilə alınmış soyuducu kameralı xüsusi avtomaşınlardan istifadə olunur. Hazırda müəssisədə müxtəlif çeşidlərdə ət və ət məhsulları, hisə verilmiş və bişirilmiş kolbasa məmulatları, eləcə də sosiska istehsal edilir. Burada ət və ya hazır məhsul laborator analizdən keçirildikdən sonra satışa buraxılır.

İstehsal müəssisəsində çiy dönər sifarişləri də qəbul edildiyini, daim təzə ətlə təmin olunması üçün ayrı-ayrı rayonlarda fəaliyyət göstərən fermer və fərdi sahibkarlar ilə əlaqələr yaradıldığını da öyrənirik. Muxtar respublikanın müxtəlif bölgələrində yaşayan əhalidən bazar qiymətlərinə uyğun olaraq iribuynuzlu və xırdabuynuzlu heyvanlar alınmaqla xammal tədarük edilir. Dönər hazırlayan Səfər Əliquliyev beş ilə yaxındır, burada çalışır. O deyir ki, həm dönər, həm də başqa məhsulların hazırlanmasında yerli sakinlərdən alınan ətdən istifadə edilməsinə üstünlük verilir. Burada gün ərzində 100 baş iribuynuzlu, 250 baş xırdabuynuzlu heyvan kəsimini həyata keçirmək mümkündür. Müxtəlif dondurucu temperatura malik 8 soyuducu kamera yaradılıb, məhsulların ticarət mərkəzlərinə çatdırılması məqsədilə 2 soyuducu yük yeri olan nəqliyyat vasitəsi alınıb. İki ildən artıqdır ki, qovurma istehsalına da başlanılıb.

Ət məhsulları kompleksində istehsal prosesində xammala olan tələbat yerli sakinlərdən alınan iribuynuzlu heyvanlar hesabına ödənilir. Bundan başqa heyvandarlıqla məşğul olan sahibkarlar istədikləri vaxt təsərrüfatında ətlik iribuynuzlu və xırdabuynuzlu heyvanları kompleksə nağd yolla sata bilirlər. Eyni zamanda sahibkar əgər, sadəcə, kəsim üçün müraciət edibsə, kəsilən heyvanın əti müəssisədəki xüsusi maşınlarla sifarişçilərin ünvanlarına çatdırılır.

Müəssisənin nəzdində fəaliyyət göstərən mağaza ilə tanışlıq zamanı həmsöhbət olduğum alıcı Hüseyn Səfərov deyir ki, kompleksdə müxtəlif çeşidlərdə ət və ət məhsullarının istehsal olunması istehlakçılara seçim imkanı yaradır. Onu da bildirək ki, gələcəkdə müəssisədə istehsal olunan məhsulların ölkəmizin digər regionlarında satışı və xarici bazarlara çıxarılması da planlaşdırılır.

**Ramiyyə ƏKBƏROVA**

*Son illər muxtar respublikada mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın bütün sahələrində, o cümlədən aqrar sektor üzrə dinamik inkişafa nail olunmuşdur. Yeni emal müəssisələrinin yaradılması, məhsul istehsalçılarına dövlət maliyyə dəstəyinin göstərilməsi, məhsulun satışı üçün yarmarkaların keçirilməsi kənd təsərrüfatı sahəsində istehsalın həcminin ildən-ilə artmasına səbəb olmuşdur. Bunun nəticəsidir ki, 2021-ci ildə kənd təsərrüfatı məhsulunun ümumi həcmi 2020-ci illə müqayisədə 5,3 faiz artaraq 573 milyon 380 min 700 manata çatmışdır.*

## Ekoloji cəhətdən təmiz ərzaq məhsullarına olan tələbatın ödənilməsində soyuducu anbarların da böyük rolu var



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" bu sahədə yeni istiqamətlər müəyyənləşdirmişdir. Proqramın icrası istiqamətində ötən il muxtar respublikada ərzaq məhsulları istehsal edən müəssisələr modernləşdirilmiş, bu sahədə yeni müəssisələrin



yaradılması diqqət mərkəzində saxlanılmış, yeni anbarların qurulması, sahibkarlıq subyektlərinə dövlət maliyyə dəstəyinin göstərilməsi və digər tədbirlər həyata keçirilmişdir.

Aqrar sektorun inkişafına xidmət edən mühüm tədbirlərdən biri də soyuducu anbarların yaradılmasıdır. Çünki bu anbarlar bir tərəfdən istehsal olunan məhsulların satışı ilə əlaqədar meydana çıxan problemləri aradan qaldırmaqla meyvə-tərəvəz məhsullarının yetişdirilməsinə marağı artırırsa, digər tərəfdən əhalinin ilboyu keyfiyyətli yerli məhsullarla təminatına imkan verir. Ötən il Naxçıvan şəhərində fəaliyyət göstərən "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin tutumu 800 ton olan soyuducu anbarı istifadəyə verilmiş, bununla da cəmiyyətin soyuducu anbarlarının sayı 4-ə, ümumi tutumu isə 2350 tona çatdırılmışdır.

Muxtar respublikanın bölgələrində də kənd təsərrüfatı məhsullarının istehsalının artırılması məqsədilə soyuducu anbarların yaradılması istiqamətində tədbirlərin uğurla həyata keçirilməsi daxili bazarda məhsul bolluğunu təmin etmişdir. Ötən il dövlət maliyyə dəstəyi və özəl investisiya qoyuluşu hesabına böyük iqtisadi potensiala malik olan və sosial-iqtisadi cəhətdən sürətli inkişaf yolu keçmiş Şərur rayonunun İbadulla, Kürçülü, Dərvişlər, Cəlilkənd və Zeyvə kəndlərində tutumu 1020 ton olan 5 soyuducu anbarın yaradılması başa çatdırılmışdır. Hazırda muxtar respublikada ümumi tutumu 21 min 400 ton olan 50 soyuducu anbar fəaliyyət göstərir.

Bundan əlavə, muxtar respublika əhalisinin meyvə və tərəvəz məhsullarına olan tələbatını yerli istehsal hesabına təmin etmək məqsədilə Babək rayonunun Badaşqan kəndində özəl investisiya qoyuluşu hesabına tutumu 600 ton olan yeni soyuducu anbarın qurulması davam etdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən digər layihələrlə yanaşı, soyuducu anbarlara da güzəştli kredit ayrılması davam edir. Son illər ərzində soyuducu anbarların qurulması və məhsul tədarükü məqsədilə Sahibkarlığın İnkişafı Fondundan sahibkarlara 19 layihənin maliyyələşdirilməsi üçün 6 milyon 124 min 860 manat güzəştli kredit ayrılmışdır.

Həyata keçirilən bu cür məqsədyönlü tədbirlərin nəticəsində soyuducu anbarlara ötən il 8713 ton kartof, soğan, kələm, alma, üzüm məhsulları tədarük olunmuş və əhaliyə ucuz qiymətlərlə satışı təmin edilmişdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

*Ümummilli liderimiz Heydər Əliyevin "Azərbaycanın incisi" adlandırdığı Ordubad adı çəkiləndə yadıma ilk olaraq nələrin düşdüyü barədə fikirləşib seçim qarşısında qalıram: Nuhun ayağı dəyən torpaq – Gəmiqayamı? Tarixi memarlıq abidələrimi? Dadlı-tamlı meyvələri ilə tanınan yurd yerimi? Ətri adamı bihuş edən limonun vətənimi? Suallar çoxdur. Bir cavab isə bu qədim yurd yerinin ön sırada duran brendləri sırasındadır: Görkəmli elm, mədəniyyət, dövlət xadimləri yetişdirən torpaq – bu bölgənin ən qiymətli potensialı olan Yusif Məmmədəliyev, Məmməd Səid Ordubadi, Məhəmməd Tağı Sidqi, adlarını çəkmək mümkün olmayan yüzlərlə yazıçı, şair, elmlər doktorları...*

*Təhsil millətin gələcəyidir*

## Yaradılmış təhsil ənənələri yeni dövrün tələblərinə uyğun olaraq davam etdirilir



Onların bu səviyyəyə yüksəlməsində başlıca səbəblərə gələndə isə yenə də bir neçə amili xatırlamalı olursan; onlardan birincisi isə tarixən bu qədim yurd yerində elmə, təhsilə yüksək dəyər verilməsidir. "Əxtər" məktəbi Ordubadda yaradılıb, bu torpağın şair təbiətli insanları "Əncüməni-şüəra"nın ətrafında toplaşıblar. Ordubadın güclü təhsil ənənələri yaradılan bir bölgə kimi tanınması da belə amillərlə bağlıdır. Və ən yaxşı hal kimi o da qiymətləndirilməlidir ki, bu gün həmin ənənələr daha da zənginləşdirilməkdə, rayonda elmi potensialın təmsilçiləri çoxalmaqdadır. Həmin təmsilçilər özlərindən əvvəl yaşamışların yolunu uğurla davam etdirir, ölkəmizdə elmin, təhsilin inkişafına töhfələrini verirlər.

Ordubad Rayon Təhsil Şöbəsinin müdiri Samir Zeynalov deyir ki, bu gün şöbənin tabeliyində 32 tam, 2 ümumi orta məktəb, 4 məktəbdənkənar müəssisə olmaqla, 38 təhsil ocağı fəaliyyət göstərir. Təhsil müəssisələrinin 34-ü müasirtipli binalarda yerləşir. Dövlətimizin göstərdiyi diqqət və qayğı nəticəsində məktəblərin maddi-texniki bazası ilbəil gücləndirilir. Belə ki, Ordubad rayon ümumtəhsil məktəblərində 719 kompüter, 92 elektron lövhə vardır. Bunlardan 582 kompüter və 92 elektron lövhə internetə qoşularaq şagirdlərin istifadəsinə verilib. Ümumtəhsil məktəblərində, ümumilikdə, 11 şahmat kabinəsi vardır. Kabinələr şahmatın tədrisi üçün lazım olan əyani vəsait və 11 dəst kompüterlə təmin olunub. Rayonun 7 tam orta məktəbində və bir məktəbdənkənar təhsil müəssisəsində STEAM kabinəsi müəllim və şagirdlərin ixtiyarına verilib. Mövcud məktəb binalarının yenidən qurulması, yeni məktəb binalarının tikintisi də diqqət mərkəzində saxlanılır. Belə ki, ötən il şəhər 1 nömrəli, Əndəmic, Nüsnüs, Vələver, Dırnıs kənd tam orta məktəblərinin binaları yenidən qurulub, hazırda Pəzməri kəndində məktəb binasının inşası davam etdirilir.

2020-2021-ci tədris ilinin nəticələrinə əsasən ümumtəhsil məktəblərinin XI sinfindən 259 şagird məzun olub, bunlardan 213-ü ali məktəblərə sənəd qəbulunda iştirak edib və 131 məzun tələbə adını qazanıb. 9 illik təhsil bazasından 15, 11 illik təhsil bazasından 37 şagird müxtəlif orta ixtisas təhsili müəssisələrinə qəbul ediliblər. Məzunlardan 21-i 500-dən yuxarı bal toplayıb. Dövlət İmtahan Mərkəzinin statistik təhlilinə əsasən son 5 ildə Ordubad rayonu ali məktəblərə qəbul faizinə görə ilk yerdədir.

Aza kənd tam orta məktəbini yüksək qiymətlərlə bitirən Leyla Əsgərli 642,3 bal toplayaraq rayon üzrə ən yüksək nəticə göstərib. Təbii ki, belə müvəffəqiyyətlərin qazanılmasında məktəbdə başlıca sima olan müəllimlərin böyük əməyi var. Qürurvericidir ki, onların da əməyi dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilir. Bu gün rayonda 8 müəllim Azərbaycan Respublikasının, 4 müəllim isə Naxçıvan Muxtar Respublikasının "Əməkdar müəllim"i fəxri adlarını daşıyır. 4 müəllim "Tərəqqi" medalına layiq görülüb.

Rayonun pedaqoji kollektivləri ötən dərs ilində nail olduqları uğurların sevinci ilə 2021-2022-ci tədris ilinə də uğurla başa vurmaq əzmi ilə çalışırlar. Bununla bağlı, bir neçə məktəbdə olub, qazanılan uğurlar barədə söhbət etdik. Onlar bu uğurların təməlində dayanan amillərdən danışdılar. Dəstə kənd tam orta məktəbinin direktoru Abbas Qasımov dedi:

– Doğma Naxçıvanımız gözlərimiz önündə günbəgün çiçəklənir, bütün sahələrin inkişafına böyük diqqət yetirilir. Təhsil sahəsi də bu qayğıdan yetərincə bəhrələnib. Hər il muxtar respublikada yeni məktəb binaları tikilir, tədris ocaqlarının maddi-texniki bazası gücləndirilir. Bu da hər bir məktəblinin yüksək səviyyədə təhsil almasına imkan verib. Ordubad rayonu da belə qayğıdan kənarda qalmayıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təhsil işçilərinə göstərdiyi qayğı, onlar qarşısında müəyyənləşdirdiyi vəzifələr bir ali məqsədə söykənib: dövlətçiliyimizə, müstəqilliyimizə sadiq olan vətənpərvər gənclər tərbiyə etmək. Ali Məclisin Sədri cənab Vasif Talıbov deyib: ***"Bu gün ölkəmizdə təhsil sahəsində həyata keçirilən tədbirlərin başlıca məqsədi ondan ibarətdir ki, gələcəyimizin qurucuları olan gənclər təhsilli və vətənpərvər böyüdülsünlər. Ona görə də müəllim və şagirdlər üzərlərinə düşən məsuliyyəti dərk etməlidirlər. Müəllimlər bilməlidirlər ki, onlar gələcəyin qurucularını hazırlayırlar. Şagirdlər isə bilməlidirlər ki, onlar gələcəyin qurucuları kimi yetişməlidirlər".*** Bu da üzərimizə böyük vəzifə qoyur.

Şəhər 1 nömrəli tam orta məktəbin müəllimi Yaqut Hüseynova:

– Ölkənin gələcək taleyi məhz belə yetirmələrimizdən, sabahın vətəndaşlarından asılı olacaq. Bu məsul vəzifənin yerinə yetirilməsində müasir tədris üsullarına geniş yer veririk. Bu heç də bütün ənənəvi üsulların üstündən xətt çəkmək deyil. Düzdür, bu gün zamanla səsləşməyən bəzi metodlar var, ancaq kollektiv artıq onların özünü doğrultmadığını gördü. Məsələn, sübut olunub ki, "Hafizə məktəbi" bugünkü məktəbliyə heç nə vermir. Zaman dəyişdikcə hər gün müxtəlif yeniliklər həyatımıza daxil olur. Həssas müəllim bunu görür və fəaliyyətini də bu istiqamətdə qurur, nəticəsinin uğurlu olması onu daha da ruhlandırır.

Aza kənd tam orta məktəbinin direktoru Təvəkkül Məmmədov deyir ki, sinifdə neçə şagird varsa, bir o qədər də xarakter var. Bu da hər bir müəllimdən böyük məsuliyyət tələb edir. Əgər əlinə jurnal alıb sinfə girən müəllim bunu dərindən dərk edirsə, o, nailiyyət qazanmaya bilməz. Fərdi yanaşma və sinfin ümumi fəallığının təmin olunması tədrisin səviyyəsinin yüksəldilməsində böyük təsirə malikdir. Çalışırıq ki, fəaliyyətimizdə bunları diqqətdə saxlayaq. Çoxillik təcrübədə bu metoddan istifadə etməyin səmərəli olduğu təsdiq edilib. Məktəbdə çalışan gənc müəllimlərə də bunu tövsiyə edirəm.

Ordubad şəhərindəki internat tam orta məktəbinin direktoru Məzahir Xəlilov:

– Hər bir insanın hərtərəfli inkişafında təhsillə yanaşı, mütaliənin də böyük rolu var. Ona görə də məktəb kitabxanalarımız zəngin kitab fonduna malikdir. Bu xəzinədən istifadə etmək üçün kitab müzakirələrinin keçirilməsini, kitabxanaya gətirilmiş yeni kitabların sərgilərinin təşkil edilməsini diqqətdə saxlayırıq ki, bu da uşaqlara əlavə biliklər verməklə yanaşı, həm də onlarda mütalİə mədəniyyəti formalaşdırır. Bəzən səhv olaraq deyirlər ki, uşaqlarda mütaliəyə marağı gücləndirmək üçün ədəbiyyat fənnindən ayrılmış sinifdənxaric oxu materialları kifayətdir. Əslində, belə deyil. Kitabxanada müxtəlif humanitar və dəqiq elmlərlə bağlı kitablar da var. Onlardan necə istifadə olunması üçün bütün müəllimlər məsuliyyət daşıyır, öz vəzifə borclarına həssaslıqla yanaşırlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə oxunması zəruri hesab edilən kitablardan ibarət hazırladığımız guşə şagirdlərimizin ixtiyarına verilib. Qrafik əsasında onların müzakirələri keçirilir.



Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək rəhbəri Aytəkin Həsənova:

– Muxtar respublikamızda təhsilin bütün təbəqələrinin inkişafına şərait yaradılıb. Bu sırada məktəbdənkənar müəssisələri də qeyd etmək lazımdır. Belə müəssisələrə cəlb olunan şagirdlərin istedad və bacarıqlarının düzgün formalaşdırılması qarşıya qoyulan vəzifələrdir. Çünki bu, şagirdin hərtərəfli inkişafına stimul yaradır.

Tələbə Sunay Allahverdiyeva:

– Bütün abituriyentlər yüksək bal toplamaq, ali məktəb tələbəsi adını qazanmaq arzusunda olur. Mən də arzuma çatdım, buraxılış imtahanında 260 bal toplayaraq "Gümüş" nişana layiq görüldüm, ali məktəblərə qəbul imtahanlarında 567,4 bal toplamağa müvəffəq oldum. Bu böyük uğura nail olmağımda orta təhsil aldığım Ordubad rayonunun Azadkənd tam orta məktəbində bizə elmlərin sirlərini öyrədən müəllimlərimin əməyi əvəzsizdir. Buna görə də onların etimadını doğruldaraq tələbə adını qazanmış bütün yoldaşlarım adından müəllimlərimizə minnətdarlığımı bildirirəm.

*Bu söhbətlər belə qənaətə gəlməyə əminlik yaradır ki, şərəfli bir missiyanı yerinə yetirən Ordubad rayonunun təhsil işçiləri qazanılan uğurları son həddə hesab etmir, təhsil ənənələrini zənginləşdirmək qayğısına qalır, yaradılmış şərait müqabilində qarşıya qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirməyə səy göstərir, növbəti dərs ilini daha böyük göstəricilərlə başa vurmağa çalışır.*

**Nurlu MƏMMƏDLİ**
***Ordubad rayonunun Aza kənd tam orta məktəbinin müəllimi***

*Təbiət abidələrimiz*

## Əfsanələrdə "yaşayan"




*Qədim Naxçıvan ərazisi tarixi abidələrinin zənginliyi ilə Azərbaycanda, ümumilikdə isə Qafqazda özünəməxsusluğu ilə seçilir. Bu qədim diyarda antik, orta əsrlər dövrünə aid maddi mədəniyyət nümunələri, ilk insanların yaşadıqları mağaralar, qədim yaşayış yerləri, möhtəşəm qala divarları, qayaüstü rəsmlər, daş qoç heykəllər, türbələr, körpülər və digər tarixi abidələr əcdadlarımızın ictimai-mənəvi həyatını, adət-ənənələrini və mədəniyyətini öyrənmək üçün qiymətli mənbədir. Onların çoxu tarixin boranına, tufanına sinə gərib bu günümüzə olduğu kimi çatıb, bəziləri zədələnib, bir qismi sovet dönəminin qurbanı olub.*

Müstəqillik qazandığımız illərdə muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələri dövlət qayğısı ilə əhatə edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamına əsasən 1200-dən artıq abidə qeydə alınaraq pasportlaşdırılıb. Həmin Sərəncam muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələrinin tədqiqində, bununla yanaşı, həm də dövlətçilik tariximizin öyrənilməsində yeni mərhələnin başlanğıcını qoyub. Onlara böyük dövlət qayğısının ifadəsidir ki, bir neçə abidəyə ilkinliyi saxlamaqla yeni həyat bəxş edilib. Əlincə, Gülüstan, Qarabağlar abidələri, imamzadələr təmir-bərpa olunub.

Naxçıvan, eyni zamanda əsrarəngiz təbiət gözəllikləri ilə məşhurdur. Belə gözəlliklər içərisində dağ-təpələr, dərələr, vadilərlə yanaşı, həm də ana təbiətin özünün yaratdığı maraqlı abidələr var. Muxtar respublikamızın landşaftını bəzəyən belə təbiət abidələri içərisində xalq arasında "Gəlinqaya" adlandırılan abidələr özünəməxsusluğu ilə seçilir.

Bu abidələrlə bağlı ulularımızın təxəyyülündən yaranan əfsanələr xalqımızın milli-mənəvi dəyərlərini, əxlaqını, düşüncəsini əks etdirir. Zaman-zaman bu əfsanələr folklorşünaslarımız tərəfindən toplansa da, hələ də bir qismi yazıya alınmamış, ayrı-ayrı adamların hafizəsində yaşamaqdadır. Şahbuz rayonunun ərazisində, Zəngəzur silsiləsinin cənub-qərb yamacında, Naxçıvançayın sağ qolu Zərnətünçayın mənbə hissəsindəki Gəlinqaya zirvəsi günbəzvari çıxıntıdır. Bu abidə haqqında müxtəlif əfsanələr mövcuddur. Belə əfsanələrin birində deyilir ki, bir gün düşmənlər qəfildən hücum çəkirlər. Eldə qaçhaqaç düşür. Adamlar özlərini itirir, hara qaçdıqlarını bilmirlər. El-obanın çox igidləri qırılır. Yağılar qoca demir, uşaq demir, qadın demir, qarşılarına çıxanların hamısını qılıncdan keçirirlər. Bu qaçhaqaçda bir hamilə gəlin də gizlənməyə yer axtarır. Hara göz gəzdirirsə, gizlənməyə yer tapa bilmir. Ayaqyalın, başaçıq dağlara sarı üz tutur. Sən demə, düşmənlər gəlini görüblərmiş. Düşürlər arxasınca. Gəlin piyada, düşmənlər də atlı, yazıq hara qaça bilər ki? Düşmənlər çathaçatda üz tutur göyə, yalvarış edir. Elə bu vaxt düşmən atlıları özlərini yetirirlər. Amma yerlərindəcə donub qalırlar. Onların qarşılarında qadına oxşayan uca bir qaya peyda olur. Gəlin qayaya dönübmüş. Elə o vaxtdan da xalq arasında bu qayaya "Gəlinqaya" deyilir.

Bu abidə haqqında digər bir əfsanədə isə deyilir: "Qədim zamanlarda Şahbuzun çox ucqar kəndlərindən birində gözəlliyi aləmə yayılan sərvboylu bir gəlin varmış. Əri düşmənlə vuruşmada həlak olubmuş. Sevənləri çox olsa da, yaxından, uzaqdan gələn elçilər həmişə kor-peşman geri qayıdarmış. Günlərin bir günü gəlini tanımadığı bir oğlan qaçırır. Oğlan qorxusundan gəlini dağlara aparır. Onlar başı göylərə dəyən Toğlu qayayla Salvartı dağının arasından keçəndə gəlin çırpınıb oğlanın əlindən çıxmaq istəyir, ancaq bacarmır. Əlacsız qalan gəlin uca qaya başında üzünü göylərə tutub aman istəyir... Daşa dönmüş gəlinin abidəsi o vaxtdan el arasında "Gəlin qayası" adıyla tanınır".

Digər Gəlinqaya isə Şərur rayonu ərazisində – Dərələyəz silsiləsindən şimal-qərbə ayrılan Saraybulaq qolunun suayrıcında yerləşir. Buradakı qaya da günbəzvari şəkildədir. Havuş kəndinin şimalında, Tamaşalı yaşayış yerinin yaxınlığında yerləşən qayanın hündürlüyü 2769 metrdir. Tədqiqatçılar bu abidəni VII-VIII əsrlərə aid edirlər.

Muxtar respublikamızdakı Gəlinqaya abidələrinə Ordubad rayonunda da rast gəlmək olar. Buradakı Gəlinqaya rayonun Unus və Pəzməri kəndləri arasında yerləşir və abidə insan fiquruna bənzəməsi ilə diqqət çəkir. Bu abidələrlə bağlı yaranmış əfsanələr indi də hafizələrdə yaşamaqdadır. Hər birinin motivində də çətinlik anında göylərə üz tutub yalvarmaq, kömək istəmək və nəticədə, daşa dönməklə ana xətt kimi keçir. Mahiyyət etibarilə əfsanələrdə qadın ləyaqəti, qadın isməti ön planda durur və ağsaqqal babalarımızın, ağbirçək nənələrimizin təfəkkür və düşüncə tərzinin məhsulu kimi xalqımızın milli-mənəvi dəyərlərini, əxlaqını, düşüncəsini əks etdirir.

**Lyudmila QULİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Xarici dillər fakültəsinin müəllimi***

## Dərs vəsaitinin təqdimatı olub





*Dünən Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatında təşkilatın üzvü, Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsinin Fortepiano kafedrasının baş müəllimi Fəridə Ağayevanın "İnstrumental pyeslər simli və nəfəsli alətlər üçün" dərs vəsaitinin təqdimatı keçirilib.*

Tədbirdə Bəstəkarlar Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Yaşar Xəlilov müəllifin yaradıcılığı və ərsəyə gətirdiyi dərs vəsaiti haqqında məlumat verib. Bildirib ki, Fəridə Ağayeva 2016-cı ildən Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının üzvüdür. Təşkilatın plenumlarında 2012-2018-ci illərdə mahnıları səslənib. 2018-ci ildə "Heydər Əliyev-95" mahnı müsabiqəsində iştirak edərək I yerə layiq görülüb. Hazırda dissertant olaraq "Azərbaycan musiqi tarixi kontekstində Naxçıvan Bəstəkarlar Təşkilatının fəaliyyəti və rolu" mövzusu üzərində çalışır. Elmi, pedaqoji fəaliyyətlə yanaşı, yaradıcılıqla da məşğuldur. "Musiqi aləmi" və "Uşaq mahnıları" adlı iki kitabın müəllifidir. Dəfələrlə müsabiqələrdə iştirak edib, diplom və fəxri fərmanlarla təltif olunub.

Qeyd edilib ki, təqdimatı keçirilən yeni dərs vəsaiti musiqi təhsili alan tələbələr, eləcə də bu sahədə çalışan müəllim heyəti üçün maraqlı və faydalıdır. Yaşar Xəlilov müəllifi təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Tədbir müəllifin əsərlərindən ibarət bədii hissə ilə davam etdirilib.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Musiqi Kolleci tələbələrinin konserti



Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində Naxçıvan Musiqi Kollecinin Xalq çalğı alətləri şöbəsinin qarmon ixtisası üzrə müəllim və tələbələrinin konserti keçirilib. Kollecin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Məhəbbət Babayeva konservatoriya ilə birgə keçirilən konsertlərin artıq ənənəvi hal aldığını qeyd edib. Bildirilib ki, kollecdə artıq 15 ildir, qarmon ixtisası üzrə kadr hazırlığı aparılır, 7 müəllim 40-a yaxın tələbəyə bu ixtisasın sirlərini öyrədir.

Konsertdə Tofiq Quliyevin, Emin Sabitoğlunun, Ramiz Mirişlinin, Vasif Adıgözəlovun, Aftandil İsrafilovun bəstələri, Azərbaycan xalq rəqsi "Tiflisi", Azərbaycan xalq mahnıları əsasında popuri, "Naxçıvan rəqsi", xarici bəstəkarların rəqsləri ifa edilib.

Sonda ali təhsil ocağının rektoru, dosent Elbrus İsayev Musiqi Kollecinin universitetin nəzdində fəaliyyət göstərməsinin musiqi təhsilində pilləli sistemin düzgün təşkilinə, istedadlı musiqiçi kadrların formalaşdırılmasına xidmət etdiyini vurğulayıb.

**Əli YARIYEV**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

## Bədən Tərbiyəsi və İdman Günü münasibətilə tədbirlər keçirilir



*Naxçıvan Muxtar Respublika Stadionunda 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə Naxçıvan şəhər tam orta məktəblərinin şagirdləri (2005-2007-ci illər) arasında atletikanın yadro itələmə, nizəatma və qaçış növləri üzrə şəhər birincilikləri keçirilib.*

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi, Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının Naxçıvan Şəhər Bölməsi və şəhər Uşaq-Gənclər İdman Məktəbinin birgə təşkil etdiyi birincilikdə 13 tam orta məktəbdən 182 idmançı (hər komandadan 7 oğlan, 7 qız) iştirak edib.

Yadro itələmə növündə idmançılar yadronu diametri 213,5 santimetr olan məhdudlanmış çevrə içərisindən meydanın nişanlanmış bölməsinə tullayıblar. Şəxsi xarakter daşıyan birinciliyin yekununa əsasən qızlar arasında Aysu Əliyeva (15 nömrəli tam orta məktəb), oğlanlar arasında Əli Rzayev (1 nömrəli tam orta məktəb) qalib adını qazanıblar.

Nizəatma növündə keçirilən birinciliyin yekununa əsasən qızlar arasında Günayə Həsənova (9 nömrəli tam orta məktəb), oğlanlar arasında İsmayıl Abbaslı (15 nömrəli tam orta məktəb) birinci olublar.

Qaçış növündə isə qızlar arasında Aminə Novruzzadə (14 nömrəli tam orta məktəb) 100 metr, Şənay Hüseynova (14 nömrəli tam orta məktəb) 200 metr, Ülviyyə Hüseynova (15 nömrəli tam orta məktəb) 400 metr, Sevinc Əliyeva (15 nömrəli tam orta məktəb) 800 metr, Fatimə Məmmədova (17 nömrəli tam orta məktəb) 1500 metr məsafədə, oğlanlar arasında isə Rəhman Abbasov (14 nömrəli tam orta məktəb) 100 metr, Suat Həsənli (5 nömrəli tam orta məktəb) 200 metr, Əliabbas Səfərov (15 nömrəli tam orta məktəb) 400 metr, Əmir Əliyev (7 nömrəli tam orta məktəb) 800 metr, Turan Hümbətov (8 nömrəli tam orta məktəb) 1500 metr məsafədə hamıdan güclü olublar.

Komanda hesabında isə 15 nömrəli tam orta məktəbin komandası qalib adını qazanıb. 14 nömrəli tam orta məktəbin komandası ikinci, 17 nömrəli tam orta məktəbin komandası isə üçüncü olub.

Sonda yer tutan komanda və idmançılara təşkilatçıların diplomları təqdim edilib.

* * *

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində yeniyetmə boksçular arasında muxtar respublika birinciliyi keçirilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Naxçıvan Boks Federasiyası tərəfindən birgə təşkil olunan yarış muxtar respublikada boksun inkişafı, idmançıların yarış təcrübəsinin artırılması və perspektivli boksçuların aşkar edilərək yığma komandaya cəlb edilməsi məqsədi daşıyıb.

Olimpiya sisteminə əsasən qalibin müəyyənləşdiyi birincilikdə 12 çəki dərəcəsi üzrə görüşlər keçirilib. Yekun nəticəyə əsasən İlham Əliyev (Naxçıvan, 46 kiloqram), Kamran Rəsulov (Naxçıvan, 48 kiloqram), Məhəmmədəli Qasımov (Naxçıvan, 50 kiloqram), Elbrus Kərimli (Naxçıvan, 52 kiloqram), Ayxan Heydərov (Naxçıvan, 54 kiloqram), Elgün Rzalı (Ordubad, 57 kiloqram), Sərvan Abdullayev (Sədərək, 58 kiloqram), Turqay Paşayev (Kəngərli, 60 kiloqram), Gülay Hümbətova (Naxçıvan, 63 kiloqram), Əli Abdullazadə (Naxçıvan, 66 kiloqram), Lalə Namazlı (Şərur, 70 kiloqram) və Kənan Allahverdiyev (Naxçıvan, 80 kiloqram) öz çəki dərəcələri üzrə birinci olublar.



Qalib və mükafatçılara diplom və hədiyyələr təqdim edilib.

## Cüdoçularımızdan uğurlu nəticə

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Hövsan qəsəbəsində yerləşən İdman Sağlamlıq Mərkəzində usta cüdoçuların arasında keçirilən ölkə çempionatına yekun vurulub.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Cüdo Federasiyasının birgə təşkil etdiyi çempionatda 120-yə yaxın cüdoçu medallar uğrunda mübarizə aparıb.

Birincilikdə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının idmançıları da öz güclərini göstəriblər. Onlardan Məcid Rzayev 30-34 yaş kateqoriyasında -90 kiloqram çəki dərəcəsində gümüş medal qazanıb. Digər idmançımız Sərvan Məhərrəmov isə -90 kiloqram çəki dərəcəsində (45-49 yaş kateqoriyası) ölkə birinciliyini bürünc medalla başa vurub.




Qalib idmançılarımız təşkilatçılar tərəfindən mükafatlandırılıb.

✍ **Ceyhun MƏMMƏDOV**

## Məktəb tibb bacılarının nəzəri və praktik təcrübə kursları davam edir



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin göndərişi ilə Naxçıvan Tibb Kollecində məktəb tibb bacılarının nəzəri və praktik təcrübə kursları davam edir. Əziz Əliyev adına Mərkəzi Uşaq Xəstəxanasında keçirilən, fevralın 25-dən start götürən məşğələlərə Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası, Şərur Rayon Uşaq Xəstəxanası, Şərur, Babək Rayon Mərkəzi xəstəxanalarının məktəb tibb bacıları cəlb olunub.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında Poliklinika şöbəsinin müdiri Şəmsi Əsgərovun apardığı məşğələlərdə məktəblər üçün zəruri olan sağlamlıq jurnallarının, o cümlədən dispanserizasiya, mantu və diaskin test sınaqları, şagirdlərə ilk tibbi yardım, infeksion xəstəliklər, məktəblərdə sanitar vəziyyətə nəzarətin təşkil olunması əyani şəkildə izah edilib. Təcrübə kursları 18 iş günü davam edəcək.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Hamiliklə bağlı tədbir



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 25 iyun tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncamının icrası ilə bağlı növbəti tədbir keçirilib.

Naxçıvan Dövlət Universitetində Kitabxanaçılıq və informasiya fəaliyyəti ixtisası üzrə təhsil alan tələbələrə "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil olan Reyhan Mirzəzadənin "A.S.Qriboyedov: şair-diplomat" əsərinin müzakirəsi olub.

Tədbiri giriş sözü ilə Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru Tamella Əsgərova açaraq "Oxunması zəruri olan kitablar"ın əhəmiyyətindən, həm şair, həm də diplomat kimi fəaliyyət göstərən A.S.Qriboyedovun həyat və fəaliyyətindən danışıb.

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasının direktoru Fariz Əhmədov hamiliklə bağlı keçirilən tədbirlərin tələbələr üçün böyük əhəmiyyətindən bəhs edib.

Sonra M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının şöbə müdiri Əzizə Süleymanzadə və kitabxananın əməkdaşı Aysel Əhmədova çıxış edərək bildiriblər ki, əsərdə ölkəmizin bir çox şəhərlərində olan şair-diplomatın 1819-cu ildə Naxçıvanla tanış olması, burada qalması, onun yazılarında Naxçıvan, Qazançı, Culfa, Sədərək kimi şəhər və kəndlərin adlarının çəkilməsi, Naxçıvanla bağlı qeydləri, xatirə və digər yazılarından bəhs olunur. Reyhan Mirzəzadənin "A.S.Qriboyedov: şair-diplomat" kitabında diqqəti çəkən ən əsas məqamlardan biri də Qriboyedovun 1828-ci ilin oktyabrında Culfa şəhərində yazdığı məktubdur. Qafqazın ali baş komandanı, general Paskeviçə ünvanlanan məktub işğalçı ermənilərin Cənubi Qafqazın əzəli sakinləri olmaları yönümündəki sayıqlamalarına ən tutarlı cavablardan biridir.

Sonra tələbələrlə birgə əsər ətrafında müzakirələr aparılıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

### Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi
### *2022-2023-cü tədris ili üçün Naxçıvan Qızlar Liseyinə şagird qəbulu elan edir*

Liseyə şagird qəbulu 2022-2023-cü tədris ili üzrə ümumtəhsil məktəblərinin V sinfində təhsil alacaq qız şagirdlər arasında müsabiqə yolu ilə aparılır. Liseyə qəbul olmaq üçün aşağıdakı sənədlər tələb olunur:

- *şəxsiyyət vəsiqəsinin surəti;*
- *3x4 santimetr ölçüdə 2 ədəd fotoşəkil;*
- *valideynin ərizəsi;*
- *təhsil aldığı məktəbdən arayış;*
- *sağlamlıq haqqında arayış.*

Sənədlər 4 mart 2022-ci il tarixdən 25 aprel 2022-ci il tarixədək saat $9^{00}$-dan $18^{00}$-dək Naxçıvan Qızlar Liseyində qəbul ediləcəkdir.

Müsabiqə 14 may 2022-ci il tarixdə Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə saat $10^{00}$-da keçiriləcəkdir.

Şagirdlərin nəzərinə çatdırılır ki, liseyə qəbul üçün keçiriləcək müsabiqə test formatında aparılır. Müsabiqədə şagirdlərə Azərbaycan dili fənni üzrə 30, riyaziyyat fənni üzrə 30, ingilis dili fənni üzrə 10 olmaqla, ümumilikdə, 3 fəndən 70 sual təqdim olunacaqdır.

Müsabiqədə şagirdlərə 3 saat vaxt veriləcəkdir.

Muxtar respublika üzrə ən yüksək nəticə göstərən 60 şagird liseyə qəbul olunacaqdır.

***Ünvan: Naxçıvan Qızlar Liseyi, İ.Məmmədov küçəsi 2***
***Əlaqə nömrələri: (036) 545-03-47; (036) 545-23-62***

### Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi
### *2022-2023-cü tədris ili üçün Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə şagird qəbulu elan edir*

Liseyə şagird qəbulu 2022-2023-cü tədris ili üzrə ümumtəhsil məktəblərinin VII sinfində təhsil alacaq oğlan şagirdlər arasında müsabiqə yolu ilə aparılır. Liseyə qəbul olmaq üçün aşağıdakı sənədlər tələb olunur:

- *şəxsiyyət vəsiqəsinin surəti;*
- *3x4 santimetr ölçüdə 2 ədəd fotoşəkil;*
- *valideynin ərizəsi;*
- *təhsil aldığı məktəbdən arayış;*
- *sağlamlıq haqqında arayış.*

Sənədlər 4 mart 2022-ci il tarixdən 25 aprel 2022-ci il tarixədək saat $9^{00}$-dan $18^{00}$-dək Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə qəbul ediləcəkdir.

Müsabiqə 14 may 2022-ci il tarixdə Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbdə saat $10^{00}$-da keçiriləcəkdir.

Şagirdlərin nəzərinə çatdırılır ki, liseyə qəbul üçün keçiriləcək müsabiqə test formatında aparılır. Müsabiqədə şagirdlərə Azərbaycan dili fənni üzrə 20, riyaziyyat fənni üzrə 25, fizika fənni üzrə 25, ingilis dili fənni üzrə 15, biologiya fənni üzrə 5, coğrafiya fənni üzrə 5, tarix fənni üzrə 5 sual olmaqla, ümumilikdə, 7 fəndən 100 sual təqdim olunacaqdır. Müsabiqədə şagirdlərə 3 saat vaxt veriləcəkdir.

Muxtar respublika üzrə ən yüksək nəticə göstərən 60 şagird liseyə qəbul olunacaqdır.

***Ünvan: Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey, Şərur şəhəri, Sabir küçəsi 26***
***Əlaqə nömrəsi: (036) 542-30-76***

### İtmişdir

Babək rayonunun Nehrəm kəndində yaşamış Bağırov Əsəd Firudin oğlunun adına olan JN-2065 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 204